BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

Azərbaycanın xarici siyasətində Türk Dövlətləri Təşkilatının yeri

Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

NOYABR 2026

Azərbaycanın xarici siyasətində Türk Dövlətləri Təşkilatının yeri

Azərbaycanın xarici siyasətində Türk dünyası ilə münasibətlər tarixi, mədəni və siyasi amillərin qarşılıqlı təsiri əsasında formalaşıb. Müstəqilliyin bərpasından sonra bu istiqamət ölkənin regional siyasətində mühüm yer tutub. Son illərdə isə türk dövlətləri ilə əməkdaşlıq ayrıca xarici siyasət prioritetinə çevrilib. Bu dəyişiklik yalnız etnik və mədəni yaxınlıqla izah edilmir. Yeni geosiyasi şərait, nəqliyyat marşrutlarının əhəmiyyətinin artması və dövlətlərin təhlükəsizlik maraqları da həmin siyasəti şərtləndirir. Burada Prezident İlham Əliyevin fikirlərinə istinad etmək fikrimizcə yerinə düşər : "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır"[1]. Dövlət başçısı təşkilat çərçivəsində fəaliyyətin Azərbaycan üçün prioritet olduğunu da açıq ifadə etdi. **Bu yanaşma Türk dünyasının artıq yalnız mənəvi bağlılıq məkanı deyil, xarici siyasətin konkret institusional istiqaməti kimi qəbul edildiyini göstərir.**

Azərbaycanın mövqeyinin əsas məğzi türk dövlətlərinin əməkdaşlığını daha sistemli və nəticəyönümlü məcraya keçirməkdir. Bakı TDT-ni digər beynəlxalq təşkilatlara alternativ kimi deyil, öz maraqlarını daha təsirli şəkildə müdafiə edə biləcəyi əlavə çoxtərəfli platforma kimi inkişaf etdirmək istəyir. Bu siyasətdə Azərbaycanın coğrafi mövqeyi, müttəfiqlik əlaqələri və nəqliyyat imkanları xüsusi əhəmiyyət daşıyır.

TDT - nin formalaşmasında Azərbaycanın rolu

Türk dövlətlərinin müasir institusional əməkdaşlığı 1990-cı illərdə keçirilən zirvə görüşləri ilə başlasa da, təşkilati əsas 3 oktyabr 2009-cu ildə Naxçıvanda qoyuldu. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə liderləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini imzaladılar. Saziş 2010-cu ildə qüvvəyə mindi. Beləliklə, əvvəllər əsasən siyasi məsləhətləşmələr şəklində aparılan təmaslar daimi qurumları olan dövlətlərarası əməkdaşlıq mexanizminə çevrildi [2]. **Təsis sənədinin məhz Naxçıvanda imzalanması Azərbaycanın bu prosesdə təşəbbüskar və ev sahibi kimi rolunu nümayiş etdirdi.** Naxçıvanın Türkiyə ilə həmsərhəd olması da ayrıca rəmzi məna daşıyırdı. Burada əldə olunan razılaşma ortaq dil və tarixə əsaslanan münasibətləri hüquqi çərçivəyə saldı. Bununla belə, təşkilatın yaranması tək bir dövlətin deyil, dörd təsisçi ölkənin ortaq siyasi iradəsinin nəticəsi idi. Sonrakı dövrdə də Azərbaycan təşkilatın genişlənməsində və gündəliyinin zənginləşməsində fəal iştirak etdi. Özbəkistan 2019-cu ildə Bakıda keçirilən zirvə görüşü zamanı tamhüquqlu üzv oldu. 2021-ci ildə İstanbul sammitində təşkilat Türk

[1] https://president.az/az/articles/view/64527
[2] https://turkicstates.org/en/presidental-summits

Dövlətləri Təşkilatı adını aldı [3]. 2024-cü ildə Şuşada keçirilən qeyri-rəsmi zirvə görüşü və 2025-ci ildə Qəbələdə təşkil olunan XII Zirvə Görüşü Azərbaycanın siyasi təşəbbüslərinin davamı oldu. Bu mərhələdə əməkdaşlığın mövzuları mədəniyyət və diplomatiya ilə məhdudlaşmadı. Nəqliyyat, enerji, investisiya və təhlükəsizlik məsələləri daha çox ön plana çıxdı.

Geosiyasi və geoiqtisadi maraqlar

Azərbaycanın TDT daxilində əhəmiyyətini müəyyən edən başlıca amillərdən biri onun yerləşdiyi coğrafiyadır. Azərbaycan Türkiyə ilə Türküstan arasında Xəzər üzərindən bağlantı yaradan əsas halqalardan biri hesab edilir. Burada "körpü" anlayışı yalnız coğrafi mənada başa düşülməməlidir. Ölkə eyni zamanda siyasi dialoqun, enerji daşımalarının və yük axınlarının əlaqələndirildiyi məkandır. Azərbaycanın iştirak etmədiyi etibarlı və rəqabətqabiliyyətli Transxəzər xəttini təsəvvür etmək mümkün deyil. Orta Dəhliz adlandırılan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin və Mərkəzi Asiyadan başlayaraq Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa istiqamətində davam edir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt limanı və digər logistika imkanları Azərbaycanın bu marşrutda rolunu artırır. Lakin infrastrukturun mövcudluğu hələ tam inteqrasiya demək deyil. Tariflərin razılaşdırılması, sərhəd-gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal sənəd dövriyyəsi və daşımaların proqnozlaşdırılması zəruridir. TDT-nin praktik dəyəri həm də məhz bu məsələlərdə üzv dövlətlər arasında uzlaşma yarada bilməsindən asılı olacaq.

Enerji əməkdaşlığı da geoiqtisadi gündəliyin mühüm tərkib hissəsidir. Azərbaycan Türkiyə üzərindən beynəlxalq bazarlara çıxış təcrübəsinə malikdir. Qazaxıstan və digər Mərkəzi Asiya dövlətləri ilə Xəzər üzərindən enerji və logistika əməkdaşlığının dərinləşməsi isə Türk dünyasının iqtisadi əlaqələrini genişləndirə bilər. Burada məqsəd vahid iqtisadi məkanın qısa müddətdə yaradılması deyil. Daha real və faydalı istiqamət qarşılıqlı asılılığı artıran, lakin milli qərarvermə imkanlarını məhdudlaşdırmayan layihələrin həyata keçirilməsidir.

Azərbaycan TDT-nin müstəqil geosiyasi güc mərkəzinə çevrilməsində maraqlıdır. Bu fikir təşkilatın başqa güclərlə qarşıdurma yaratması kimi başa düşülməməlidir. Müstəqil güc mərkəzi dedikdə, üzv dövlətlərin ortaq mövqelərini formalaşdıra bilməsi, iqtisadi imkanlarını əlaqələndirməsi və xarici təzyiqlər qarşısında qərarvermə sərbəstliyini qoruması nəzərdə tutulur. Bunun üçün institusional ardıcıllıq, ortaq layihələrin icrası və üzv dövlətlərin siyasi iradəsi vacibdir.

[3] https://www.turkicstates.org/en/organization-chart

Prezident İlham Əliyev 7 oktyabr 2025-ci ildə Qəbələdə keçirilən XII Zirvə Görüşündə türk dövlətlərinin "vahid güc mərkəzi kimi çıxış etməsi"nin vacibliyini vurğuladı. O, 2026-cı ildə Azərbaycanda TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi[4]. Bu təşəbbüs müdafiə sahəsində əlaqələrin daha sistemli xarakter almasına yönəlmiş siyasi təklifdir. Bununla belə, birgə təlim təklifini hərbi ittifaqın artıq yaradılması kimi qiymətləndirmək düzgün olmaz. Təhlükəsizlik əməkdaşlığının miqyası dövlətlərin razılığı, hüquqi öhdəlikləri və konkret ehtiyacları əsasında müəyyənləşə bilər.

Fikrimizcə, TDT-nin daha təsirli birliyə çevrilməsi Avrasiya məkanında sülh və sabitliyə müsbət təsir göstərərdi. Təşkilatın fəaliyyətinin beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və sərhədlərin toxunulmazlığına uyğun qurulması TDT - nin Avrasiya məkanında pozitiv rol oynamaq imkanlarını artırır. Nəqliyyat əlaqələrinin genişlənməsi qarşılıqlı iqtisadi maraqların artmasına töhvə verir. Daimi siyasi məsləhətləşmələr isə anlaşılmazlıqların vaxtında müzakirəsinə şərait yaradır. Lakin onu da əlavə edək ki, bu müsbət nəticələr avtomatik yaranmır. Hesab edirəm ki, TDT digər regional tərəfdaşları təcrid etmədən açıq iqtisadi əməkdaşlığı və proqnozlaşdırılan təhlükəsizlik dialoqunu təşviq etməlidir.

İkitərəfli müttəfiqlik və təşkilat daxilində bərabərhüquqluluq

Azərbaycanın TDT siyasətinin mühüm xüsusiyyəti çoxtərəfli əməkdaşlığın güclü ikitərəfli münasibətlərə söykənməsidir. Azərbaycan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla müttəfiqlik haqqında müqavilə və bəyannamələr imzalayıb. Prezident İlham Əliyev 2026-cı ilin oktyabrında TDT üzv ölkələrinin təhlükəsizlik üzrə rəhbər şəxsləri ilə görüşündə bu dörd dövlətlə müttəfiqlik münasibətlərinin mövcud olduğunu ayrıca təsdiqləyib[5]. Türkiyə ilə 2021-ci il Şuşa Bəyannaməsi, Qazaxıstanla strateji tərəfdaşlıq və müttəfiqlik sənədləri, digər iki ölkə ilə imzalanan müvafiq siyasi sənədlər münasibətlərin hüquqi əsasını möhkəmləndirir. İkitərəfli müttəfiqlik təşkilatın bütövlükdə avtomatik hərbi ittifaq olduğunu ifadə etmir. Bununla belə, yaxın siyasi əlaqələr çoxtərəfli müzakirələrdə qarşılıqlı etimadı gücləndirir. Hər bir dövlətin ayrı-ayrı iqtisadi və təhlükəsizlik prioritetləri olduğuna görə TDT daxilində qərarların uzlaşdırılması daimi diplomatik iş tələb edir. Məhz bu baxımdan Bakı həm ikitərəfli tərəfdaşlığa, həm də ümumi təşkilati mexanizmlərə önəm verir.

Azərbaycan üçün bərabərhüquqluluq və suverenliyə qarşılıqlı hörmət prinsipial əhəmiyyət daşıyır. Təşkilat daxilində hər hansı dövlətin digərləri üzərində qeyri-rəsmi üstünlük əldə etməsi uzunmüddətli inteqrasiyanı zəiflədə bilər. Üzvlərin

[4] https://president.az/az/articles/view/70315
[5] https://president.az/az/articles/view/73518

iqtisadi çəkisi və siyasi imkanları müxtəlifdir. Lakin bu fərqlər qərarvermədə iyerarxiya yaratmamalıdır. Ortaya qoyulan layihələrdə qarşılıqlı fayda və könüllü iştirak əsas götürülməlidir. Belə yanaşma həm həssas məsələlərdə etimadı qoruyar, həm də daha geniş ortaq gündəlik formalaşdırar.

TDT-nin kimliyi məsələsində də dəqiqlik vacibdir. Təşkilat özünü türk dövlətləri arasında əməkdaşlıq qurumu kimi müəyyən edir. Hazırda tamhüquqlu üzvlər Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistandır. Bununla yanaşı, Macarıstan və İqtisadi Əməkdaşlıq Təşkilatı kimi türk dövləti olmayan subyektlərə müşahidəçi statusu verilib [6]. Bu baxımdan deyə bilərik ki, təşkilatın etnik-mədəni nüvəsinin qorunması ilə üçüncü tərəflərlə məhdud institusional əməkdaşlıq bir-birini istisna etmir. Fikrimcə, həm Azərbaycanın, həm də TDT - nin maraqları kontekstində ən uyğun yanaşma tamhüquqlu üzvlük üçün ortaq türk kimliyini əsas meyar kimi saxlamaq, digər tərəfdaşlarla isə təşkilatın məqsədlərinə xidmət edən çevik əlaqələr qurmaq ola bilər.

Ticarət əlaqələrinin dinamikası və mövcud məhdudiyyətlər

Son illərdə Azərbaycanla TDT üzvləri arasında iqtisadi əlaqələr nəzərəçarpacaq dərəcədə genişlənib. Dövlət Gömrük Komitəsinin 2025-ci il məlumatlarına əsaslanan hesablamaya görə, Azərbaycanın digər dörd tamhüquqlu üzv dövlətlə ticarət dövriyyəsi 7 milyard 263,8 milyon ABŞ dolları olub. Bu, 2024-cü illə müqayisədə 5,4 faiz artım deməkdir. 2025-ci ildə ixrac 3 milyard 572,3 milyon, idxal 3 milyard 691,5 milyon dollar təşkil edib[7].

Bununla belə, ölkələr üzrə göstəricilər mühüm fərqləri də üzə çıxarır. 2025-ci ildə Türkiyə ilə ticarət 5 milyard 720,8 milyon dollar olub və əvvəlki ilə nisbətən 6,7 faiz azalıb. Qazaxıstanla dövriyyə 670,6 milyon dollara yüksələrək 42,6 faiz, Qırğızıstanla 77,2 milyon dollara çataraq 93 faiz artıb. Özbəkistanla ticarət isə 795,2 milyon dollar təşkil edib və təqribən 3,2 dəfə yüksəlib[8]. Rəqəmlər ümumi artımın bütün tərəfdaşlar üzrə eyni istiqamətdə getmədiyini göstərir. Ticarətdə əsas pay hələ də Türkiyəyə məxsusdur. Eyni zamanda, Mərkəzi Asiya ölkələri ilə əlaqələrin genişlənməsi ticarətin coğrafi baxımdan şaxələndiyini göstərir. Onu da qeyd edək ki, bu göstəricilərin qiymətləndirilməsində metodoloji fərq nəzərə alınmalıdır. Yuxarıdakı 7,26 milyard dollarlıq məbləğ yalnız TDT-nin digər dörd tamhüquqlu üzvünü əhatə edir. Müşahidəçi Türkmənistan həmin toplama daxil edilməyib. Dövlət

[6] https://turkicstates.org/en
[7] https://apa.az/sahibkarliq/azerbaycanin-tdt-ye-uzv-olkeler-ile-ticaret-dovriyyesinin-hecmi-melum-olub-938301
[8] https://apa.az/sahibkarliq/azerbaycanin-tdt-ye-uzv-olkeler-ile-ticaret-dovriyyesinin-hecmi-melum-olub-938301

Statistika Komitəsinin milli xarici ticarət üzrə açıqladığı 2025-ci il ümumi məbləğində isə bəzi enerji ixrac əməliyyatlarının əlavə statistik qiymətləndirilməsi tətbiq edilir [9].

Əldə edilən nəticələr iqtisadi inteqrasiyanın potensialını göstərsə də, onun dərinləşməsi üçün əlavə addımlar tələb olunur. Birgə investisiya fondları, sənaye kooperasiyası, bank hesablaşmalarının asanlaşdırılması, logistika xərclərinin azaldılması və qeyri-neft ixracının genişləndirilməsi yaxın illərin əsas vəzifələri ola bilər. Əsas meyar yalnız ticarət dövriyyəsinin artması deyil. Ticarətin strukturu, əlavə dəyər yaradan istehsal əlaqələri və qarşılıqlı investisiyaların keyfiyyəti də diqqətdə saxlanılmalıdır.

Nəticə

Əminliklə qeyd etmək olar ki, Türk Dövlətləri Təşkilatı Azərbaycanın xarici siyasətində tarixi-mədəni yaxınlığı geosiyasi və geoiqtisadi maraqlarla birləşdirən mühüm platformaya çevrilib. Azərbaycanın 2009-cu il Naxçıvan Sazişinin imzalanmasındakı rolu, sonrakı zirvə görüşlərinə ev sahibliyi etməsi və yeni təşəbbüsləri Bakının təşkilata formal deyil, strateji yanaşdığını göstərir. Azərbaycanın əsas üstünlüyü Türkiyə ilə Türküstan arasında yerləşməsi və bu coğrafi mövqeyi real nəqliyyat, enerji və diplomatik imkanlara çevirə bilməsidir. Azərbaycanın marağı TDT-nin müstəqil qərarvermə imkanları olan, beynəlxalq münasibətlərdə öz mövqeyini ifadə edə bilən güclü əməkdaşlıq mərkəzinə çevrilməsidir. Bu məqsəd üçün üzv dövlətlərin suveren bərabərliyinin qorunması xüsusi şərtdir. İyerarxik münasibətlərə yol verilməməsi təşkilatın daxili bütövlüyünü möhkəmləndirər. Digər tərəfdən, iqtisadi və təhlükəsizlik təşəbbüslərinin real layihələrə çevrilməsi siyasi bəyanatların məzmununu artırardı.

Gələcək inkişaf üçün ən məqsədəuyğun yol ortaq kimliyin qorunması ilə praqmatik əməkdaşlığın uzlaşdırılmasıdır. TDT dövlətlərin milli siyasətini əvəz edən fövqəlmilli quruma çevrilmədən də ciddi beynəlxalq çəki qazana bilər. Bunun əsas şərti üzvlərin bir-birinə hörmət etməsi, əlaqələndirilmiş layihələrdən qarşılıqlı fayda götürməsi və beynəlxalq hüququn prinsiplərinə sadiq qalmasıdır. Belə model Azərbaycanın xarici siyasət maraqlarına uyğun olmaqla yanaşı, Avrasiyada sabitliyin və regional əməkdaşlığın möhkəmlənməsinə də töhfə verə bilər.

Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin şöbə müdiri

[9] https://www.stat.gov.az/special_version/news/index.php?id=6610